Asiya İnkişaf Bankı

www.compliance.adb.org

# Hesabatlılıq Mexanizmi

AİB-nin Yardım Göstərdiyi Layihələrdən Zərər Çəkmiş İcmaların Dinlənilməsi və İnkişafın Effektliyinin Artırılması

## Asiya İnkişaf Bankı Haqqında

Asiya İnkişaf Bankı (AİB) 67 üzvün sahib olduğu inkişaf naminə çoxtərəfli maliyyə institutudur. Onun amalı Asiya və Sakit Okean regionunu yoxsulluqdan azad görməkdir. AİB, inkişaf etməkdə olan üzv ölkələrdə hökumətlərə və özəl müəssisələrə kreditlər, texniki yardımlar, qrantlar, səhmdar kapitalına yatırımlar və zəmanətlər verməklə çoxsahəli inkişafyönlü tədbirlər vasitəsilə insanların yaşayış səviyyəsinin keyfiyyətini yaxşılaşdırmağa kömək etməkdədir.

## AİB-in hesabatlılıq mexanizmi nədir?

2003-cü ilin mayında AİB, əvvəlki Təftiş Funksiyasını əvəzləyən yeni hesabatlılıq mexanizmini qəbul etmişdir. Bu Mexanizm AİB-in yardım göstərdiyi layihələrdən zərər çəkmiş şəxslərə öz problemlərini səsləndirmək və onların həlli yollarını axtarmaqda, eyni zamanda AİB-in əməliyyat qaydaları və prosedurlarının pozulması ilə bağlı iddialarını bildirməkdə daha geniş imkanlar yaratmaq məqsədilə təşkil olunmuşdur.

Yeni mexanizmin yaradılması həmçinin AİB-in əməliyyatlarında inkişafın effektliyi, layihələrin keyfiyyəti və şəffaflılığını artırmaq üçün bir addımdır.

Bu mexanizmin əsas xüsusiyyəti onun bir biri ilə əlaqəli iki funksiyasının olmasıdır: məsləhətləşmə və uyğunluğun baxışdan keçirilməsi. Birincisi, tərəflər arasında problemin həllinə çalışılan məsləhətləşmə prosesidir. Əgər məsələnin qənaətbəxş həllinə nail olunmazsa, məsləhətləşmə üçün şikayət etmək məqsədəuyğun hesab edilmirsə, yaxud əgər məsləhətləşmə prosesi uğurlu mərhələyə yaxınlaşıbsa və yalnız uyğunluq məsələləri ilə bağlı narahatlıqlar varsa, bu zaman uyğunluğun baxışdan keçirilməsi ilə bağlı müraciət etmək mümkündür.



## Məsləhətləşmə mərhələsi nədir?

- Məsləhətləşmə mərhələsinin məqsədi AİB-in yardım göstərdiyi layihələrdən zərər çəkmiş şəxslərə öz problemlərinin həlli yollarını tapmaqda yardım etməkdir. Bu mərhələyə AİB-in Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndəsi (Special Project Facilitator/SPF) rəhbərlik edir.

- Məsləhətləşmə mərhələsi edilmiş şikayətin nə dərəcədə əsaslı olub-olmamasına baxılması ilə başlayır. Əgər şikayət qəbul olunarsa, əsas diqqət cəlb olunmuş bütün tərəflər-şikayətçi, layihənin icraçısı, inkişaf etməkdə olan üzv ölkənin hökuməti və ya özəl sektordan olan sponsor və AİB arasında razılaşmanın əldə olunmasına veriləcəkdir. Bununla belə, Layihənin İcrasını Asanlaşdırmağa məsul Xüsusi Nümayəndə (SPF) heç bir inkişaf etməkdə olan üzv ölkənin daxili işlərinə müdaxilə etməyəcəkdir.

- Layihənin İcrasını Asanlaşdırmağa məsul Xüsusi Nümayəndə (SPF) problemin həlli üçün əlavə bir vasitə təklif edir, lakin AİB-in əməliyyat departamentləri tərəfindən həyata keçirilən layihənin idarəedilməsi rolunu əvəz etmir. Bu şəxs bir-başa olaraq AİB-in Prezidentinə hesabat verir və şikayətlə bağlı görülməli tədbirlər barədə tövsiyə verir. O həmçinin məsləhətləşmələr prosesində əldə olunan razılaşmaların həyata keçirilməsini monitorinq edəcəkdir.

"Mən əminəm ki, bütün cəlb olunan tərəflərin dəstəyi ilə Hesabatlılıq Mexanizmi AİB–in layihələrindən zərər çəkmiş şəxslərin şikayətlərinə yerindəcə baxmaqla onların tələbatlarına cavab verəcək və AİB–in hesabatlılığını artıracaq şəffaf prosesin yaradılmasını təmin edəcəkdir."

TADAO ÇİNO
AİB-IN PREZİDENTİ
AİB-IN HESABATLILIQ MEXANİZMİNİN QÜVVƏYƏ MİNMƏSİ BARƏDƏ NİTQİ
DEKABR 2003

---



## Uyğunluğun baxışdan keçirilməsi mərhələsi nədir?

- Uyğunluğun baxışdan keçirilməsi əsas diqqəti, layihələrdən zərər çəkmiş şəxslərə üz verən bir başa və maddi ziyan, habelə belə ziyanın AİB-in müvafiq layihənin hazırlanması, işlənməsi, yaxud həyata keçirilməsi zamanı öz əməliyyat qaydaları və prosedurlarından hər hansı birinin pozulması ilə yaranıb-yaranmamasını araşdırmağa yönəldir. Uyğunluğun baxışdan keçirilməsi Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyası (Compliance Review Panel/CRP) adlı müstəqil qurum tərəfindən aparılır.

- Uyğunluğun baxışdan keçirilməsi sözügedən Komissiya tərəfindən uyğunluğun baxışdan keçirilməsi ilə bağlı edilmiş müraciətin əsaslı olub-olmaması ilə bağlı AİB-in Direktorlar Şurasına tövsiyyənin edilməsi ilə başlayır. Müraciət məqbul hesab edilərsə, Komissiya müstəqil təhqiqat aparır və layihənin uyğunluğunu təmin etmək üçün, onun həyata keçirilməsi və ya əhatə dairəsi ilə bağlı lazımı düzəlişlərin edilməsi barədə Direktorlar Şurasına tövsiyələr verir.

## Kim şikayət/müraciət edə bilər?

- AİB-in yardım göstərdiyi layihənin yerləşdiyi ölkə və ya ona bitişik digər üzv ölkədən olan iki və ya daha artıq şəxsdən ibarət qrup. Bu həmçinin hər hansı bir təşkilat, birlik, cəmiyyət və ya digər hər hansı fərdlər qrupu ola bilər.

- Layihə tərəfindən zərər çəkmiş şəxslər tərəfindən təyin olunan yerli nümayəndə.

- İstisna hallarda, yerli nümayəndə tapılmayanda və Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndənin (SPF) razılığı olduqda, yerli olmayan nümayəndə; və müraciət olunduqda, Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyası (CRP).

- Direktorlar Şurasının hər hansı üzvü xüsusi hallarda fəaliyyətdə olan layihələrlə əlaqədar müraciət edə bilər.



## Şikayəti/müraciəti necə etməli

Şikayətçilər şikayəti birinci növbədə Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndəyə (SPF) etməlidirlər. Şikayətçilər, əgər şikayətləri məqbul hesab edilməmişsə, və ya əgər məsləhətləşmə prosesindən qənaətbəxş deyilərsə, yaxud əgər məsləhətləşmə prosesi razılığın əldə edilməsinə nail olmaq mərhələsindədirsə, lakin uyğunluq məsələləri ilə bağlı narahatlıqlar mövcuddursa, öz şikayətlərini Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyasına (CRP) təqdim etməlidirlər.

Şikayətlər/müraciətlər yazılı şəkildə edilməli və Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndəyə (SPF) və ya Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyasının (CRP) Katibliyinə poçtla, faksla və ya elektron poçtla göndərilməlidir, yaxud AİB-in baş qərargahına və ya hər hansı Ölkə Nümayəndəliyinə, yaxud Nümayəndə Ofisinə şəxsən çatdırılmalıdır. Şikayətlər/müraciətlər ingilis dilində təqdim edilməlidir. Əgər şikayətçi/müraciətçi ingilis dilində tərcüməni təmin edə bilmirsə, belə olduğu halda AİB-in üzv ölkələrinin hər hansı rəsmi və ya milli dilində göndərilə bilər. Əgər istənilərsə, şikayətçilərin şəxsiyyəti məxfi saxlanılacaqdır, lakin anonim şikayətlər qəbul edilməyəcəkdir.

## Hansı məsələlər Şikayət/ Müraciət üçün münasib deyil?

- AİB, yaxud layihəni həyata keçirən tərəfindən malların, xidmətlərin satınalınması və məsləhət xidmətləri ilə bağlı çıxarılan qərarlar. Bu məsələlər barədə AİB-in Mərkəzi Əməliyyatlar Xidmətləri Ofisinə bu ünvanda müraciət edilməlidir www.adb.org/COSO.
- Layihələrdə və eləcə də AİB heyəti tərəfindən saxtakarlıq və korrupsiya halları barədə məlumatlar. Bu məsələlər barədə AİB-in Baş Auditor Ofisinin Antikorrupsiya Bölməsinə bu ünvanda müraciət edilməlidir www.adb.org/Anticorruption/unit.asp.
- Layihənin fiziki olaraq başa çatdırılmasından sonra bir qayda olaraq iki il ərzində, layihənin tamamlanma hesabatı artıq dərc olunmuşdursa
- Əgər məsələlər əvvəlki Təftiş Funksiyası və ya Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyası (CRP) tərəfindən artıq nəzərdən keçirilmişsə.
- 29 May 2003-cü il tarixindən əvvəl qəbul edilmiş özəl sector layihələri.




**AİB-in Hesabatlılıq Mexanizmi barədə daha ətraflı məlumat almaq üçün www.compliance.adb.org səhifəsinə müraciət edə bilərsiniz.**

## Şikayətin məzmunu

Şikayət aşağıdakıları aydınlaşdırmalıdır:

- Şikayətçi AİB-in yardım göstərdiyi layihə tərəfindən bir başa maddi ziyana məruz qalmış və zərər çəkmişdirsə və ya belə olacağı ehtimal olunursa
- Vurulduğu iddia edilən birbaşa və maddi ziyan AİB-in yardım etdiyi layihənin hazırlanması, işlənməsi, yaxud həyata keçirilməsi zamanı, AİB tərəfindən görülmüş hər hansı fəaliyyətin və ya səhlənkarlığın nəticəsində olmuş və ya olacaqdırsa.
- AİB-in yardım etdiyi layihədən birbaşa dəymiş/dəyəcək maddi ziyan və ya çəkilmiş/çəkiləcək zərərlə bağlı hüquqların və maraqların açıqlanması
- Şikayətçinin (və ya hər hansı bir nümayəndəsinin) şəxsiyyəti və əlaqə məlumatları və əgər şikayətçinin şəxsiyyətinin məxfi saxlanması istənilirsə, bunun səbəbləri
- Zərər çəkmiş şəxsin nümayəndəsi varsa, layihədən zərər çəkmiş şəxslərin şəxsiyyətləri və onları təmsil etmək hüququnu sübut edən sənəd
- Adı və yeri daxil olmaqla AİB-in yardım etdiyi layihənin qısa təsviri, əgər varsa
- Layihədən zərər çəkmiş şəxslərin AİB tərəfindən təmin edilməsi gözlənilən və ya Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndəsi (SPF) vasitəsilə yardım edilməsi gözlənilən arzuolunan nəticə yaxud qarşısın alma tədbirləri
- Şikayətçinin problemlərini həll edilməsi məqsədilə birinci olaraq müvafiq əməliyyat departamentinə etdiyi xoşniyyətli cəhdlərinin açıqlanması
- Yuxarıda sadalanan məlumatların hər hansı birinin niyə təmin edilə bilinməməsinin izahatı
- Hər hansı başqa məsələlər yaxud faktlar sübutedici sənədlərlə bir yerdə

Layihənin İcrasının Asanlaşdırılmasına məsul Xüsusi Nümayəndə (SPF):

**Special Project Facilitator**
Asian Development Bank
6 ADB Avenue
Mandaluyong City 1550
Philippines

| | |
|---|---|
| Tel: | +632 632-4825 |
| Faks: | +632 636-2490 |
| E-poçt: | spf@adb.org |
| Internet ünvanı: | www.adb.org/spf |

## Uyğunluğun Baxışdan Keçirilməsi üçün edilən Müraciətin məzmunu

Müraciət aşağıdakıları aydınlaşdırmalıdır:

- Müraciət edən AİB-in yardım göstərdiyi layihə tərəfindən bir başa maddi ziyana və zərərə məruz qalmışdır yaxud qalması gözlənir
- Vurulduğu iddia edilən birbaşa və maddi ziyan AİB-in yardım etdiyi layihənin hazırlanması, işlənməsi, yaxud həyata keçirilməsi zamanı, AİB-in qayda və prosedurlarının yerinə yetirilməsinin nəticəsi olaraq baş verdiyi iddia olunan hər hansı fəaliyyətin və ya səhlənkarlığın nəticəsində olmuş və ya olacaqdırsa.
- AİB-in yardım etdiyi layihədən birbaşa dəymiş/dəyəcək maddi ziyan və ya çəkilmiş/çəkiləcək zərərlə bağlı hüquqların və maraqların açıqlanması
- Zərər çəkmiş şəxsin nümayəndəsi varsa, layihədən zərər çəkmiş şəxslərin şəxsiyyətləri və onları təmsil etmək hüququnu sübut edən sənəd
- Hər hansı nümayəndə varsa, layihə tərəfindən təsirə məruz qalmış insanların şəxsiyyətləri və onları təmsil etmək hüququnu sübut edən sənəd
- Adı və yeri daxil olmaqla AİB-in yardım etdiyi layihənin qısa təsviri, əgər varsa
- Layihədən zərər çəkmiş şəxslərin AİB tərəfindən təmin ediləcəyini gözlədikləri arzuolunan nəticə yaxud qarşısını alma tədbirləri
- Müraciət edənin birinci olaraq Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndəyə (SPF) (yaxud Layihənin İcrasını Asanlaşdırmağa Məsul Xüsusi Nümayəndə şikayəti məqbul hesab etməyərək rədd edibsə, buna baxmayaraq nəyə görə bu müraciət uyğunluğun baxışdan keçirilməsi üçün əsaslıdırsa) müraciət edərək problemləri həll etmək məqsədilə etdiyi cəhdlərin nəticələrinin açıqlanması
- Yuxarıda sadalanan məlumatların hər hansı birinin niyə təmin edilə bilinməməsinin izahatı
- Hər hansı başqa məsələlər yaxud faktlar sübutedici sənədlərlə bir yerdə

Uyğunluğun Baxışdan Keçirilməsi Komissiyasının (CRP) əlaqə məlumatları:

**Secretary, Compliance Review Pane**l
Asian Development Bank
6 ADB Avenue
Mandaluyong  City 1550
Philippines

| | |
|---|---|
| Tel: | +632 632-4149 |
| Fax: | +632 636-2088 |
| E-poçt:: | crp@adb.org |
| Internet ünvanı: | www.compliance.adb.org |

**İngilis dilində 2004-cü ilin Mart tarixində nəşr olunmuşdur**

**Bu sənəd İngilis dilindən tərcümə edilmişdir və sənədlə bağlı hər hansı fikir ayrılığı və ya ziddiyət olduğu halda ingilis dilindəki mətn etibarlı sayılır.**
**Azərbaycan versiyası 2007-ci ilin aprel tarixində nəşr olunmuşdur.**